***BAŞ REDAKTORDAN***
***FROM THE EDITOR IN CHIEF***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***

*UOT 37.1*

***Akif Nurağa oğlu Abbasov***
*pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
*https://orcid.org/ 0000-0002-9210-7141*
*E-mail: a.abbasov@arti.edu.az*
*https://doi.org/10.69682/arti.2025.92(6).5-10*

## AZƏRBAYCAN DİLİ – DÖVLƏT DİLİDİR, BU DİLİ VƏ ONUN SAFLIĞINI QORUYAQ

***Akif Nuragha Abbasov***
*doctor of pedagogical sciences, professor, honored teacher*
*scientific secretary at the Institute of Education of the Republic of Azerbaijan*

## AZERBAIJAN LANGUAGE IS THE STATE LANGUAGE, LET'S PROTECT THIS LANGUAGE AND ITS PURITY

***Акиф Нурага оглы Аббасов***
*доктор педагогических наук, профессор, заслуженный учитель*
*ученый секретарь Института Образования Азербайджанской Республики*

## АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК – ГОСУДАРСТВЕННЫЙ ЯЗЫК, ЗАЩИТИМ ЭТОТ ЯЗЫК И ЕГО ЧИСТОТУ

**Xülasə.** Azərbaycan dili çox qədim təşəkkül tarixinə malikdir. Bu dil geneoloji bölgü baxımından türk dilləri qrupunun oğuz yarımqrupuna, tipoloji bölgü baxımından isə aqlütinativ (iltisaqi) dillər qrupuna aiddir. Azərbaycan dili dövlət dili statusuna malikdir. Azərbaycan Respublikasının Konstitusiyası dilimizin qorunmasının vacibliyini bəyan edir. “Dövlət dili” adlanan 21-ci maddədə bu xüsusda deyilir: “Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir”.
***Açar sözlər**: Azərbaycan dili, Azərbaycan dilinin saflığı, dövlət dili, müstəqillik, suverenlik, fərman, sərəncam*

**Аннотация.** Азербайджанский язык имеет очень древнюю историю формирования. По генеалогическому строению он относится к огузской подгруппе тюркской языковой группы, а по типологическому – к группе агглютинативных языков. Азербайджанский язык имеет статус государственного языка. Конституция Азербайджанской Республики провозглашает важность защиты этого языка. Статья 21, именуемая «Государственный язык», гласит: «Государственным языком Азербайджанской Республики является азербайджанский язык. Азербайджанская Республика обеспечивает развитие азербайджанского языка».
***Ключевые слова**: азербайджанский язык, чистота азербайджанского языка, государственный язык, независимость, суверенитет, указ, распоряжение*

**Abstract**. The Azerbaijani language has a very ancient history. Genealogically, it belongs to the Oghuz subgroup of the Turkic language group, and typologically, to the group of agglutinative languages. Azerbaijani has the status of the state language. The Constitution of the Republic of Azerbaijan proclaims the importance of protecting this language. Article 21, entitled "State Language," states: "The state language of the Republic of Azerbaijan is Azerbaijani. The Republic of Azerbaijan ensures
***Keywords:*** Azerbaijani language, purity of the Azerbaijani language, state language, independence, sovereignty, decree, orderthe development of the Azerbaijani language"

Azərbaycan dili müxtəlif zamanlarda 4 dəfə dövlət dili statusu qazanmışdır.

***Birinci*** dəfə bu dil I Şah İsmayılın (1487-1524) hakimiyyəti dillərində işlədilmişdir. Azərbaycan dilindən rəsmi və dövlətlərarası yazışmalarda, orduda istifadə olunmuş, hakim ədəbi dil rolunu oynamışdır. I Şah İsmayıl dünyasını dəyişəndən sonra da Azərbaycan türk dili dövlət dili statusunu özündə saxlamışdır.

Azərbaycan türkcəsi dövlət dili olaraq ***ikinci dəfə*** 1918-ci il iyulun 27-də Azərbaycan Demokratik Cümhuriyyətinin qərarına əsasən elan edilmişdir. Qərarı Fətəlixan Xoyski imzalamışdır. Fəqət Azərbaycan dilinin dövlət statusunun ömrü az olmuşdur. Rus-bolşevik qoşunları 1920-ci il aprelin 28-də Azərbaycanı işğal etdikdən sonra respublikamızda rus dili hakim mövqe tutmuşdur.

1921-ci il martın 29-da Azərbaycan İnqilab Komitəsinin əmri ilə idarə və təşkilatlarda kargüzarlıq işləri türk dilində (Azərbaycan türkcəsi) aparılırdı. Əmri Nəriman Nərimanov və Dadaş Bünyadzadə imzalamışdılar. Fəqət bu, Azərbaycan dilinə hələ tam mənası ilə dövlət dili statusu verilməsi demək deyildi.

Azərbaycan dili ***üçüncü dəfə*** dövlət dili statusuna 1978-ci ildə yiyələndi. Bu, Ümummilli Lider Heydər Əliyevin xidməti idi. Ulu Öndər yenicə qəbul olunmuş Konstitusiyamıza – respublikamızın Əsas Qanununa bir maddə daxil etdi. Bu maddə Azərbaycan dilinin dövlət dili olmasını bildirən maddə idi.

Rus şovinizminin tüğyan etdiyi bir dövrdə belə bir təşəbbüs son dərəcə böyük və təhlükəli risk tələb edirdi. Heydər Əliyev təkidli oldu, igidlik, qorxmazlıq, cəsarət nümayiş etdirdi.

Azərbaycan dili ***dördüncü dəfə*** dövlət dili statusuna Azərbaycan yenidən müstəqilliyinə qovuşduqdan sonra yiyələndi.1992-ci il dekabrın 22-də "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun qəbul edildi. Həmin qanun əsasında dövlət dilimiz türk dili adlandırılmışdı. 1995-ci il noyabrın 12-də tarixində ölkəmizdə referendum keçirildi, ümumxalq səsverməsi yolu ilə respublikamızda dövlət dilinin Azərbaycan dili olması müddəası qəbul edildi.

Ümummilli Liderimiz Heydər Əliyev doğma Azərbaycan dilimizin dövlət dili statusu alması, təbliği, onun bütün idarə və təşkilatlarda rəsmi dil kimi işlədilməsi üçün böyük zəhmət və qayğı göstərmişdir. Ulu öndər istər Azərbaycanda birinci dəfə, istərsə də ikinci dəfə hakimiyyətdə olduğu illərdə bu istiqamətdə səylərini artırmışdır.

Ümummilli Lider Heydər Əliyev müxtəlif illərdə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" (2); "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" (3) və s. bu son dərəcə mühüm əhəmiyyətli fərmanlar imzalamışdır.

18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanın ilk cümləsi aşağıdakı sözlərlə başlanır: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir" (2).

30 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında Dövlət dili haqqında" qanunu (4) respublikamızda Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Qanun bu sözlərlə açılır: "Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır.

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır" (4).

Haqqında söz açılan qanun 20 maddəni özündə birləşdirən 3 fəsildən ibarətdir. Qanuna əsasən, dövlət dilini bilmək Azərbaycan Respublikası vətəndaşının hər birinin borcudur. Birinci maddə "Dövlət dilinin hüquqi statusu" adlanır. Bu maddədə göstərilir ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir.

Həmin maddənin digər bəndələrində deyilir:

"1.2. Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilir.

1.3. Azərbaycan Respublikası dövlət dilinin işlənməsini, qorunmasını və inkişafını təmin edir.

1.4. Azərbaycan Respublikasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, dövlət qurumlarında, siyasi partiyalarda, qeyri-hökumət təşkilatlarında (ictimai birlik və fondlarda), həmkarlar təşkilatlarında, digər hüquqi şəxslərdə, onların nümayəndəliklərində və filiallarında, idarələrdə dövlət dilinin tətbiqi ilə

bağlı fəaliyyət bu Qanuna uyğun olaraq həyata keçirilir, o cümlədən kargüzarlıq işləri dövlət dilində aparılır.

1.6. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla (və ya onların nümayəndəlikləri ilə) və xarici dövlətlərin diplomatik nümayəndəlikləri ilə yazışmalar Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq xarici dildə Azərbaycan dilinə tərcümə olunmaq şərtilə aparıla bilər (4).

Qanunun II fəslinə daxil olan 4-cü maddə "Dövlət dilinin rəsmi mərasimlərdə işlənməsi" adlandırılmışdır. Bu maddənin bəndlərində nəzərdə tutulur: "4.1. Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, dövlət qurumlarının keçirdiyi bütün rəsmi mərasim və tədbirlər Azərbaycan Respublikasının dövlət dilində aparılır (4).

"Dövlət dilinin təhsil sahəsində işlənməsi" adlı 5-ci maddədə qeyd olunur:

"5.1. Azərbaycan Respublikasında təhsil dövlət dilində aparılır.

5.2. ...başqa dillərdə təhsil müəssisələrinin fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Belə müəssisələrdə dövlət dilinin tədrisi məcburidir.

5.3. Azərbaycan Respublikasında ali və orta peşə-ixtisas təhsili müəssisələrinə qəbul zamanı Azərbaycan dili fənnindən imtahan verilməlidir" (4).

Qanunun 18-ci maddəsi "Dövlət dilinin qorunması və inkişafı adlanır və aşağıdakı bəndləri əhatə edir:

"18.1. ....dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, bu dilin işlənməsinə müqavimət göstərmək, onun tarixən müəyyənləşmiş hüquqlarını məhdudlaşdırmağa cəhd etmək qadağandır.

18.2. Azərbaycan Respublikasının ərazisindəki bütün kütləvi informasiya vasitələri (mətbuat, televiziya, radio və s.), kitab nəşri və digər nəşriyyat işi ilə məşğul olan qurumlar Azərbaycan dilinin normalarına riayət olunmasını təmin etməlidirlər" (4).

19-cu maddə "Qanunun pozulmasına görə məsuliyyət" adlanır. Həmin maddədə deyilir: "Bu Qanun pozan hüquqi, fiziki və vəzifəli şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar" (4).

2 yanvar 2003-cü il tarixdə Ümummilli Lider "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsini təmin etmək üçün; 27 sentyabr 2003-cü il tarixində "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə kargüzarlığın aparılmasına dair təlimat"ın təsdiq edilməsi haqqında (935 №-li fərman) fərmanlar imzalanmışdır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin dövlət dili statusu qazanması, saflığının qorunması, təbliği istiqamətində fəaliyyətini biz Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərlərinin 2023-cü il 5-ci nömrəsində "Ulu Öndər Heydər Əliyev və Azərbaycan dili" məqaləmizdə ətraflı işıqlandırmışıq (5).

Bu məqalədə ölkə Prezidenti İlham Əliyevin Azərbaycan dili ilə bağlı fəaliyyəti üzərində dayanmağı qarşımıza məqsəd qoymuşuq.

Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən biri olduğunu dəfələrlə diqqət mərkəzinə gətirərək demişdir: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir".

Cənab Prezidenti bölgələrdə keçirdiyi görüşlərdə də həmişə dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə xüsusi ehtiramla yanaşaraq onun dəyərlərindən söz açır. Prezident demişdir: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq".

Bu məsələyə çox ciddi diqqət göstərilməlidir.

Cənab İlham Əliyev 29 may 2012-ci il tarixində "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" (6) sərəncam vermişdir.

Sovet dönəmində Azərbaycan dilçilərinin dünyada gedən proseslərdən təcrid olunması ilə əlaqədar ölkəmizdə dilçilik sahəsində müəyyən boşluqlar yaranmışdı və bunları aradan qaldırmaq üçün dövlət başçısı, cənab İlham Əliyevin 9 aprel 2013-cü il tarixli, 2837 nömrəli sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və öl-

kədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" (7) təsdiq edilmişdir. "Proqram"ın "Giriş" hissəsində deyilir: "Bu gün Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən olaraq istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir.

Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır" (7).

Proqram Azərbaycan dilinin işlənmə dairəsinin genişlənrməsinə nail olmaq, dilimizin saflığını qorumaq, terminologiyanı zənginləşdirmək, dövlət idarələrində, təhsil, KİV-də və internetdə istifadəsini təmin etmək, həmçinin dilçilik elmini inkişaf etdirmək məqsədi kəsb edir. Bütün bunlar isə, dilimizin müasir dövrün tələblərinə uyğun olmasını təmin etməyə istiqamətlənib.

***Başlıca məram*:** Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilin dövlət dili kimi mövqeyini möhkəmləndirmək, respublikada dilçilik üzrə tədqiqatları yaxşılaşdırmaq, qloballaşma şəraitində bu dilin təsirini artırmaq, terminologiyanı vahidləşdirmək, elektron resurslar hazırlamaq, Azərbaycan dilçiliyi elmini inkişafına nail olmaq, dilin istifadəçilərinin hüquqlarını mühafizə etmək.

***Tədbirlər*:** Proqramın həyata keçirilərək reallaşması məqsədilə terminologiya komissiyaları yaradıldı, Azərbaycan dili ilə bağlı elektron lüğətlər, resurslar hazırlanması, dilin qorunması və təbliği yönümündə zəruri işlər yerinə yetirildi.

Əhəmiyyətli sənəddə Dövlət Proqramının əsas vəzifələri aşağıdakı kimi öz ifadəsini tapmışdır:

"3.1.1. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması;

3.1.2. dilçilik sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təkmilləşdirilməsi;

3.1.3. dünya dilçilik elminin müasir inkişaf meyllərini nəzərə almaqla, elmi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

3.1.4. dilçilik sahəsində dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlığın inkişaf etdirilməsi;

3.1.5. dilin inkişafı və tədrisi məsələlərinin uzlaşdırılması və təkmilləşdirilməsi;

3.1.6. dilçi alimlərin müasir informasiya və kommunikasiya texnologiyalarının yaradılmasında iştirakının təmin edilməsi;

3.1.9. dil və nitq mədəniyyətinin yüksəldilməsi;

3.1.10. Azərbaycan dilinin lüğət tərkibinin və qrammatik normalarının sistemləşdirilməsi (7) və s.

Azərbaycan Respublikası Prezidenti 2017-ci il noyabrın 13-də "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" da Sərəncam imzalamışdır. Həmin sərəncamda qeyd olunduğu kimi, qədim tarixi keçmişin izlərini özündə yaşadan və milyonlarla azərbaycanlının ünsiyyət vasitəsi olan Azərbaycan dili xalqımızın misilsiz mənəvi sərvəti, milli varlığımızın və dövlət müstəqilliyimizin başlıca rəmzlərindəndir. Ən dərin fikirləri ən incə çalarlarınadək ifadə qüdrətinə malik dilimiz öz kamilliyi və zənginliyinə görə dünya dilləri içərisində layiqli yerini bu gün də qoruyub saxlayır.

Azərbaycan dilinin dövlət dili olaraq qorunması və işləkliyinin təmin edilməsi müstəqil dövlət quruculuğunun prioritet prinsipləri sırasındadır" (8).

Sərəncamda deyildiyi kimi, "eyni zamanda, qloballaşma proseslərinin geniş vüsət aldığı müasir dövrdə texnoloji yeniliklərin insanlar tərəfindən sürətlə mənimsənilməsi və maneəsiz informasiya mübadiləsi imkanlarının artması ana dilinin potensial imkanlarından lazımınca istifadəsində bəzi çətinliklər yaratmaqdadır.

Mövcud şərait milli ideya – azərbaycançılıq məfkurəsi işığında dövlət dilinin saflığının qorunması və ədəbi dildən düzgün istifadə məsələlərinin daim diqqət mərkəzində saxlanılmasını zəruri edir.

Sərəncam bu istiqamətdə həyata keçiriləcək fəaliyyətin ardıcıllığının tənzimlənməsini və Azərbaycan dilinin işlənmə imkanlarının daha da genişləndirilməsini təmin etmək məqsədilə imzalanıb (8)

"Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2018-ci il tarixli, 323 nömrəli Fərmanı"nda göstərilir ki, "Müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır.

Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilmişdir.

Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir.

Azərbaycan dilinin saflığının qorunmasını və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikasının dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaratsın;

3. Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı Tədbirlər Planı"nı hazırlayıb bir ay müddətində təsdiq etsin;

4. Monitorinq Mərkəzinin nizamnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, iki ay müddətində təsdiq etsin;

5. Monitorinq Mərkəzinin strukturunu, işçilərinin say həddini və əməkhaqqı fondunu Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, iki ay müddətində təsdiq etsin;

7. Kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün qanunvericilik aktlarında dəyişikliklər barədə təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin" (9).

2018-ci il iyulun 17-də isə, "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncam verildi.

Həmin sərəncam Azərbaycan dilinin tətbiq sferalarının son dərəcə genişləndirilməsi nöqteyi-nəzərindən olduqca önəmli hesab edilməlidir.

Prezident İlham Əliyev Azərbaycan dilinin saflığının qorunmasını hər bir Azərbaycan vətəndaşının işi hesab edir. Həmin sözlərdə dərin həqiqət vardır.

Bu fikri cənab Prezident Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağındakı çıxışı zamanı demişdir. Cənab Prezident sözünə davam edərək demişdir: "Dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar – yəni, bu məsələyə çox böyük diqqət verməlidirlər", – deyə Prezident vurğulayıb. https://science.gov.az/az/news/open/33905

Hazırda müstəqil və suveren dövlətimizin varlığı dilimizin qorunması, dünya dilləri arasında özünəməxsus layiqli yer tutması baxımından son dərəcə mühüm tarixi imkandır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan dilinə çox böyük dəyər verir. Möhtərəm Prezidentimizin sözləridir: "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik" (11).

**Problemin aktuallığı**. Azərbaycan dilinin və onun saflığının qorunmasından söz açıldığına görə aktuallıq daşıyır.

**Problemin yeniliyi**. Məqalədə Azərbaycan dilinin dövlət statusu alması tarixindən, dilimizin və onun saflığının qorunmasından danışılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası https://e-qanun.az/framework/897
2. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 18 iyun 2001-ci i, № 506 https://e-qanun.az/framework/3568

3. “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı.. Bakı şəhəri, 9 avqust 2001-ci il, № 552. https://e-qanun.az/framework/2811
4. “Azərbaycan Respublikasında Dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 30 sentyabr 2002-ci il, № 365-IIQ. https://e-qanun.az/framework/1865
5. Abbasov, A.N. Ulu Öndər Heydər Əliyev və Azərbaycan dili // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2023, № 5,s. 5-12
6. “Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında”. Azərbaycan Respublikası Prezidentinin 29 may 2012-ci il tarixi sərəncamı.
7. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2013, 9 aprel tarixli, 2837 №-li sərəncamı nilə təsdiq edilmişdir
8. “Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında”. Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2017-ci il tarixli Sərəncamı. https://edu.gov.az/az/esas-senedler/14432
9. “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 01 noyabr 2018-ci il tarixli Fərmanı https://e-qanun.az/framework/40441
10. Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2018 nömrəli, 346 nömrəli sərəncamı.
11. https://science.gov.az/az/news/open/33905
12. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://files.preslib.az/projects /heydaraliyev/articles/he0629.pdf

**Redaksiyaya daxil olub**: 24.10.2025